***Bahar QASIMLI*** *

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANA RƏHBƏRLİYİNİN BİRİNCİ DÖVRÜ MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA

**Açar sözlər:** Heydər Əliyev, müstəqillik, xalq , inkişaf
**Key words:** Heydar Aliyev, independence, nation, development
**Ключевые слова:** Гейдар Алиев, независимость, народ, развитие

XX əsrin 60-cı illərində Azərbaycan SSR-də sosial-iqtisadi və mənəvi həyatın bütün sahələrində dərin böhran hökm sürürdü. İqtisadi planlaşdırılmada səhvlərin olması, kadr siyasətində yol verilən ciddi qüsurlar, həmçinin, neft sənayesinin uzun müddət geridə qalması və s. kimi məsələlər dərin problemlərə yol açırdı. Bununla, Azərbaycan SSR-in inkişafı getdikcə ləngidi və bu da öz növbəsində əhalinin sosial vəziyyətinə mənfi təsir göstərməyə başladı. Azərbaycan istehsalın, sənaye məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, əmək məhsuldarlığının artım sürətinə və milli gəlirin həcminə görə ittifaq səviyyəsindən geri qalırdı. Cəmiyyətin idarə olunmasında bütün bu problemləri dərindən dərk edən, rəhbərlik xüsusiyyətlərini özündə birləşdirən çevik təfəkkürə malik olan liderə ehtiyac duyulurdu. Tarixin bir çox çətin məqamlarında bütün cəmiyyətin inkişafı, hüquq və azadlıqların müdafiəsi kimi məsələlər bir tarixi şəxsiyyətin üzərinə düşür. Məhz xalqın içindən çıxmış parlaq zəka sahibi olan Heydər Əliyev belə məsuliyyətli işin öhdəsindən gələ bilərdi. Heydər Əliyev dərin və hərtərəfli tarixi biliyi, məqsədyönlü fəaliyyəti ilə XX əsr Azərbaycan tarixini yazdı. Dərin tarixi məlumatı olan Heydər Əliyev xalqımızı ta qədimdən günümüzədək qarşılaşdığı xəyanətlərdən ibrət dərsi almağa çağırdı. Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin əsasında milli-mənəvi dəyərlərin qorunması, soykökünə bağlılıq dururdu.

Yarım əsr bundan əvvəl, 1969-cu il iyulun 14-də ömrünü Azərbaycanın varlığına bağlamış, taleyi Azərbaycan adı ilə qoşa yazılmış xalqımızın xilaskar oğlu, dünyanın ən böyük siyasətçilərindən olan Heydər Əliyev ölkəmizə rəhbərlik etməyə başlayıb. Həmin gün Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçilib. Qeyd etmək yerinə düşər ki, Heydər Əliyev ilk azərbaycanlıdır ki, bundan əvvəl Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri təyin edilmiş və sonralar Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilmişdi.

* **Qasımlı Bahar** - A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı





Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (AKP MK) iyul (1969) plenumunda AKP MK-nın birinci katibi və MK-nın büro üzvü seçildi. Bununla, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü başlandı. Heydər Əliyev AKP MK-nın avqust (1969) plenumundakı məruzəsi ilə respublikada xalq təsərrüfatına və mədəni quruculuğa rəhbərliyi əsaslı surətdə yaxşılaşdırmaq, dövlət və əmək intizamını möhkəmləndirmək, kadrların məsuliyyətini artırmaq və korrupsiyaya qarşı mübarizənin yeni xəttini müəyyən etmişdir. Bu xətt Heydər Əliyevin sonrakı məruzə və çıxışlarında daha da inkişaf etdirilərək elmi surətdə əsaslandırılmış, respublikanın iqtisadi-siyasi həyatına, xalqın mənəviyyatına mənfi təsir göstərən tənəzzül meyllərinin qarşısının alınması, sağlam mənəvi-psixoloji mühitin, ictimai ovqatın bərqərar olunması uğrunda uzunmüddətli mübariz fəaliyyət proqramına çevrilmişdir. Heydər Əliyevin AKP-nın 28-ci (1971, mart) və 29-cu (1976, yanvar) qurultaylarında MK-nın hesabat məruzələri bu proqramın həyata keçirilməsində mühüm rolu oynamışdır. Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının (Sov. İKP) 24-cü (1971, mart-aprel) və 25-ci (1976, fevral-mart) qurultaylarında çıxış etmiş, həmin qurultaylarda Sov. İKP MK-nın üzvü seçilmişdir. Heydər Əliyev 1976 ilin mart ayında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982 ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş, eyni zamanda, Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdir. Türk-müsəlman xalqlarına qarşı ayrı-seçkilik siyasətinin yeridildiyi şəraitdə SSRİ kimi güclü bir dünya dövlətinin ali rəhbərliyinə ucalmaqla Heydər Əliyev misilsiz dövlət idarəçiliyi istedadı və bacarığı nümayiş etdirmiş, mənsub olduğu Azərbaycan xalqının ən qədim zamanlardan başlayaraq dövlət idarəçiliyi mədəniyyətinə malik olduğunu parlaq surətdə sübut etdirmişdir.

Dahi Heydər Əliyev Birinci katib seçildikdən dərhal sonra əməli fəaliyyətə başladı . Belə ki, 1969-cu il avqustun 5-də keçirilən plenumunda Heydər Əliyev öz məruzəsi ilə hamının diqqətini respublikanın mühüm problemlərinə cəlb etdi. Heydər Əliyev dövrün tələbinə uyğun olaraq şişir-

dilmiş təriflərin əksinə olaraq ölkədə baş verən çatışmazlıqları xüsusi vurğuladı. O, iqisadiyyatdakı nöqsanlardan, kadr hazırlığındakı neqativ hallardan danışdı və bunların aradan qaldırılması üçün əlindən gələni əsirgəməyəcəyini vurğuladı. 1969-cu ildə hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyev bütün sahələrdə yüksək ixtisaslı kadrların hazırlanması məsələsinə böyük diqqət və qayğı göstərdi. Bu kadrların böyük əksəriyyətini respublikanın özündə hazırlamaq məqsədilə Heydər Əliyev ali və orta ixtisas müəssisələrinin maddi-texniki bazasını möhkəmləndirdi. Onların yeni binalar və avadanlıqlarla təchiz olunmasını təmin etdi. (18)

SSRİ Konstitusiyası komissiyasının üzvü olan Heydər Əliyev yeni Konstitusiyanın hazırlanmasında fəal iştirak etmiş və Konstitusiyanı qəbul edən SSRİ Ali Sovetinin sessiyasında çıxış etmişdir (1977, oktyabr). Heydər Əliyev Azərbaycan Sovet Sosialist Respublikasının (Azərbaycan SSR) yeni Konstitusiyasının layihəsini hazırlayan komissiyanın sədri kimi, Azərbaycan dilinin Azərbaycan SSR-in dövlət dili olması haqqında maddənin respublika Konstitusiyasına daxil edilməsinə nail olmuşdur (1977, iyul). Azərbaycan SSR Ali Sovetinin sessiyasında "Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanunun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında" məruzə etmişdir (1978, aprel).

Heydər Əliyev SSRİ Ali Sovetinin (8, 9 və 10-cu çağırışlar) deputatı seçilmiş, 9-cu çağırış SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini, Azərbaycan SSR Ali Sovetinin (7, 8, 9 və 10-cu çağırışlar) deputatı və respublika Ali Soveti Rəyasət Heyətinin üzvü olmuş, Lenin ordeni (5 dəfə: 1971, 1973, 1976, 1979, 1983), Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına (1979, 1983) layiq görülmüşdür. (17)

AKP MK-nın birinci katibi seçildikdən sonra Heydər Əliyev ermənilərin Dağlıq Qarabağ torpaqlarına olan əsassız iddialarının qarşısını almağa da müvəffəq olmuşdu.

XX əsrin 60-cı illərində Yerevandan idarə olunan məkrli qüvvələr Dağlıq Qarabağda əsassız ərazi iddiaları ilə millətlərarası münasibətləri kəskinləşdirir, eyni zamanda ölkə rəhbərliyinin passiv mövqeyi, Dağlıq Qarabağdan separatçı meyillərinə çevik müdaxilə edilməməsi, Xankəndində və vilayətin digər yaşayış məntəqələrində yuva qurmuş separatçı-daşnak ünsürlərinin əl-qolunu açır, bölgədə yaşayan azərbaycanlıların hüquqlarının pozulması halları günü-gündən daha geniş miqyas alırdı. Özbaşınalıq, cəzasızlıq şəraiti o həddə gəlib çatmışdı ki, vilayətdə, eləcə də onun mərkəzi Xankəndində həyatları daim təhlükədə qalan azərbaycanlılar, hətta, doğma dillərində belə ehtiyatla danışırdılar. Lakin 1969-cu ildən Heydər Əliyev son dərəcə prinsipial, barışmaz mövqe və müdrik ardıcıl siyasətlə Dağlıq Qarabağda qol-budaq açmağa çalışan erməni millətçiliyinin qarşısına sipər çəkdi. Moskvadakı yüksək siyasi dairələrin təzyiqinə baxmayaraq, muxtar vilayət cinayətkar ünsürlərdən təmizləndi, Azərbaycan xalqına qarşı ədavət toxumu səpən daşnak tör-töküntüləri cinayət məsuliyyətinə cəlb olundular, partiya, sovet, hüquq-mühafizə, o cümlədən dövlət təhlükəsizlik orqanlarında köklü dəyişikliklər edildi, yüksək vəzifələrə azərbaycanlı kadrlar da təyin olundu. Bu əhəmiyyətli məqamı xüsusi vurğulamalıyıq ki, görülmüş belə ciddi tədbirlər vilayətin erməni əhalisinin əksəriyyəti tərəfindən də rəğbətlə qarşılanırdı. Həmin illərdə istər paytaxt Bakıda, istərsə də respublika regionlarında mühüm dəyişikliklər baş verdi. Yeni-yeni iş yerlərinin açılması, iqtisadiyyatımızın nüvəsini təşkil edən fabrik və zavodların açılışı, böyük istehsal komleksləri, sənaye obyektləri və s. buna nümunədir. Təhsil sahəsində xüsusi irəliləyişlər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsinin bariz nümunəsidir. Məhz Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində 1969-1982-ci illərdə Azərbaycan keçmiş SSRİ-də ən inkişaf etmiş respublikalardan birinə çevrildi. Paytaxt ilə yanaşı Sumqayıt, Gəncə, Naxçıvan və s. şəhər və rayonlarda fəaliyyət gösrərən ali məktəblər, teatrlar, muzeylər, kitabxanalar açıldı. Bakı məişət kondisionerləri zavodu, Bakı elektrik maşınqayırma zavodu, Bakı şampan şərabları zavodu, Bakı məişət soyuducuları zavodu, Sumqayıt kompressor zavodo, Gəncə "Büllur" zavodu və s belə müəssisələrdəndir. (9, s.67)

Heydər Əliyev irsi akademik Ramiz Mehdiyev tərəfindən sistemli şəkildə araşdırılmışdır. Onun, "Heydər Əliyevin siyasi portretinin cizgiləri" (1), "Heydər Əliyev: dəyişməyən lider idealımız" (2), "Heydər Əliyev təlimi dövlətçilik və azərbaycanlılıq" (3),"Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti" (5), "Yeni siyasət inkişafa doğru" (6), "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" (7) və digər əsərlərində Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətləri zəngin faktlar əsasında araşdırılmış, ümumiləşdirmələr aparılmış və mükəmməl elmi sistem yaradılmışdır. Alimin tədqiqatlarında Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü barədə də olduqca maraqlı və zəngin faktlar, qiy-

mətli ümumiləşdirmələr vardır. Oxuculara təqdim etdiyimiz bu məqalədə akademik Ramiz Mehdiyevin tədqiqatları istiqamətverici rol oynamışdır.

Heydər Əliyev irsini dərindən tədqiq edən akademik Yaqub Mahmudov yazır: "Əliyevin xalqımızın zəka potensialına bəslədiyi dərin inam hissi və verdiyi yüksək qiymət yaxın keçmişin bir xatirəsini gözlərim önündə canlandırdı: Altayşünasların Koreya Respublikasında (Cənubi Koreya) keçirilən beynəlxalq konqresinə getmişdim. Ölkənin müxtəlif şəhərlərində məruzələrlə çıxış edirdim. Bir dəfə təyyarə ilə Koreya yarımadasının lap cənubundakı Pusan şəhərindən Seula qayıdırdıq. Uçuş zamanı ölkənin bütün ərazisinə nizamsız şəkildə, adda-budda səpələnmiş təpələri seyr edərkən məni müşayiət edən türkoloq dostum Xana zarafatla sataşdım: – "Ölkənizin çox kasıb təbiəti var. Bu cür şəraitdə xalqınızı necə yaşadırsınız?!". Zarafatım Xanı bərk tutdu və söz altında qalmadı. – "Bizim başlıca sərvətimiz gördüyünüz təpələr deyil. Əsas var-dövlətimiz bax, burdadır" – deyə barmağı ilə başının lap ortasını göstərdi və bununla koreya xalqının intellektual inkişaf səviyyəsinə – zəka potensialına işarə etdi! Çox keçmədən Xan sözünü tamamladı: "Bir azdan biz Amerikanı da, Yaponiyanı da arxada qoyacağıq. Özünüz görəcəksiniz!" (11, s.73)

Heydər Əliyevin irsininin araşdırılması sahəsində A.A.Bakıxanov adına Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsində geniş tədqiqat işləri aparılır. Şöbə müdiri Ədalət Qasımov "Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası" (14) və "Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi" (15) kitablarında Heydər Əliyevin fəaliyyətli sistemli şəkildə araşdırmışdır. Göstərilən əsərlərdə Ümumilli lider Heydər Əliyevin həm Sovet Azərbaycanının, həm də müstəqil Azərbaycanın rəhbəri kimi Naxçıvan Muxtar Respublikasının inkişafı üçün göstərdiyi geniş fəaliyyəti təhlil edilmiş, xüsusilə onun 1990-1993-cü illərdə Naxçıvana göstərdiyi əvəzsiz xidmətləri hərtərəfli işiqlandırılmışdır.

XX əsrin 60-cı illərinin sonunda respublika sənayesinin bütün sahələrində, kənd təsərrüfatında, iqtisadiyyatın inkişafında Heydər Əliyev köklü dəyişikliklər etdi. Heydər Əliyevə görə həmin sahələrdə olan nöqsanları yalnız o yolla aradan qaldırmaq olar ki, diqqət həmin problemlərə cəmləşsin və birgə həll yolu tapılsın.

Böyük siyasətçi iqtisadiyyat (o cümlədən kənd təsərrüfatı) və mədəniyyətin müxtəlif sahələrində öz Vətəninin, xalqının inkişafı üçün zəruri





olan ən vacib məsələlər barədə əvvəlcə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur, sonra da bütün xalqımızı həmin qərarların icrasına səfərbər edir, doğma Azərbaycanın tərəqqisi uğrunda yorulmadan, gecəli-gündüzlü mübarizə aparırdı. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə (o vaxtkı terminologiya ilə desək, inzibati-iqtisadi vahidə) çevirmək onun planlarının başında gəlirdi. Bir sözlə, Vətənimizin müstəqilliyə gedən yolunu hələ o zaman Heydər Əliyev başlatmışdı.

Kadr hazırlığı da həmin dövrdə ciddi dəyişikliyə ehtiyac duyulan sahələrdən idi. Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə elmi kadrların hazırlanmasına, ali məktəblərdə tələbkarlığın artırılmasına, dissertasiyaların yüksək səviyyədə müdafiə edilməsinə xüsusi tələbkarlıqla yanaşırdı. Heydər Əliyev irsinin tədqiqatçısı akademik Yaqub Mahmudov qeyd edir: "Azərbaycan SSRİ-nin tərkibində olduğu üçün respublika rəhbərliyinə müstəqilliyə nəinki xidmət edən, hətta işarə vuran hər hansı hərəkəti etmək yasaq idi. SSRİ-nin bütün ideoloji maşını milli-mənəvi dəyərlərin unudulmasına xidmət edirdi. Belə bir məqamda Heydər Əliyev bir çox məqamlarda açıq mübarizədən çəkinmirdi. Onun böyük əzmkarlığı nəticəsində 1978-ci ildə Azərbaycan SSRİ konstitusiyasında ilk dəfə olaraq Azərbaycan dili dövlət dili kimi öz hüquqi qüvvəsini tapdı. Bu, böyük qəhrəmanlıq idi." (12, s.61)

Həmin dövrdə iqtisadi, sosial sahələrdə edilən dəyişikliklər nəticəsində 1970-ci ildə milli gəlirin artım sürəti 1966-1969-cu illərdəki göstəricilərdən təqribən iki dəfə artıq oldu. Həmçinin həmin dövrdə üzümçülük, pambıqçılıq istehsalı özünün ən yüksək inkişaf nöqtəsinə çatmışdır. 1969-1982-ci illərdə orta illik məhsuldarlıq əvvəlki 13 ilin məhsuldarlığından taxıl üzrə 1,9 dəfə, tərəvəz üzrə 1,6 dəfə, meyvəçilik üzrə 2 dəfə, çay yarpağı üzrə 2,3 dəfə çox olub ki, bu da dünyanın heç bir yerində görünməmiş inkişaf tempi olmuşdur. (18)

Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik və səriştəli rəhbərliyi nəticəsində Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı respublikasına, o cümlədən qabaqcıl pambıqçılıq və üzümçülük diyarına çevrildi. Kənd zəhmətkeşlərinin sosial-iqtisadi vəziyyəti əsaslı su-

rətdə yaxşılaşdı. Azərbaycan kəndində misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri aparıldı.

Heydər Əliyevin təşəbbüsü və gərgin əməyi, səyi nəticəsində Cəmşid Naxçıvanski adına Hərbi məktəbin açılması Azərbaycanın həyatında çox mühüm bir hadisə oldu. İlk dəfə olaraq ölkədə hərbi kadrlar yetişdirilməyə başlandı. Bundan başqa, azərbaycanlı gənclərin SSRİ-nin adlı–sanlı hərbi məktəblərinə göndərilməsinin də təşəbbüskarı məhz Heydər Əliyev oldu. Biz bu addımın da vacibliyini müstəqillik qazandıqdan sonra, erməni təcavüzkarlığı ilə qarşılaşanda daha yaxşı dərk etdik, ümummilli liderimiz Heydər Əliyevin hər bir addımının müstəqilliyə hesablandığının bir daha şahidi olduq.

1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə azərbaycanlı gənclər Moskvanın aparıcı ali məktəblərinə təhsil almağa göndərildi. Qısa bir zamanda belə gənclərin sayı 1000-ə çatdı.

Heydər Əliyev SSRİ kimi güclü dövlətin büdcə vəsaitindən istifadə edərək Azərbaycanda geniş yollar şəbəkəsi yaratmış, körpülər saldırmış, su elektrik stansiyaları tikdirmişdir. Yuxarıda qeyd olunduğu kimi, Heydər Əliyevin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə atdığı addımlarından biri də azərbaycanlılardan ibarət gənclərimizin gələcəyin müstəqil ölkəsi üçün gərəkli ixtisaslara yiyələnməkdən ötrü keçmiş Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə göndərilməsi idi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği də həyata keçirilirdi.

Məlum olduğu kimi, hələ XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-in hüquq-mühafizə orqanlarında yuva salan ermənilər xalqımıza qarşı dəhşətli repressiyalar törətmişdilər. Həmin dövrdə Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Salman Mümtaz və b. kimi Azərbaycan ziyalıları repressiya qurbanlarına çevrildilər. Heydər Əliyev sovet rejiminin bu siyasətinə dərindən bələd olduğu üçün Azərbaycana rəhbərliyi dövründə çox ciddi addımlar atmağa başladı. Heydər Əliyevin rəhbərliyi illərində Səməd Vurğunun, Cəfər Cabbarlının, Üzeyir Hacıbəyovun, Bülbülün ev muzeyləri yaradıldı. Bu dövrdə Heydər Əliyevin təşəbbüsü ilə Mikayıl Müşfiq və Hüseyn Cavidin də ev muzeyləri yaradıldı. O, hər şeyi dərindən ölçüb-biçərək xalqın sosial rifahının yüksəlişi üçün əlindən gələni etdi. Ulu Öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə ölkəmizdə həyata keçirdiyi bütün bu əzəmətli quruculuq işlərinin böyük əhəmiyyəti





olmuşdur. Məhz, 1969-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdur. "Bizim ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdəki hörmətini qaldırmaq lazımdır. Çünki, xalq həmişə öz ziyalıları, öz mədəni irsi, öz elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu vardır. Ancaq xalq həmişə mədəniyyəti, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir." – deyən Heydər Əliyev respublikamıza rəhbərliyinin birinci dövründə Bakıda və digər şəhər və rayonlarımızda tanınmış ədəbiyyat, mədəniyyət və elm xadimlərinin abidəsinin ucaldılmasına nail oldu. 70-ci illərdə Azərbaycanın görkəmli ictimai-siyasi və mədəniyyət xadimlərinin - Nəriman Nərimanovun, Mehdi Hüseynzadənin, İmadəddin Nəsiminin, Cəfər Cabbarlının, Hüseyn Cavidin, Səttar Bəhlulzadənin və s. görkəmli soydaşlarımızın abidəsi ucaldılmışdı. (9, s.141)

Sovet dönəmində Azərbaycan neftçilərinin əməyinə lazımi qiymət verilməməsi Heydər Əliyevi çox narahat edirdi. 1969-cu ildən başlayaraq görkəmli siyasi xadim bu sahədə də qəti tədbirlər görməyə başladı. Heydər Əliyevin əsrlərin və minilliklərin qovşağında Azərbaycan xalqına Müraciətində XX əsrin 60-80-ci illərinə verilən qiymət aşağıdakı kimi ifadə olunmuşdur: "Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970–1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur. SSRİ hökuməti Azərbaycanla əlaqədar, respublikada xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Azərbaycan xalqı üçün həqiqətən tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 70–80-ci illər arasında və daha sonrakı perspektivdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdi". (11, s. 136)

Azərbaycanın bədxahlarını bütün yuxarıda göstərilənlərdən daha çox narahat edən bu idi ki, bu qədər ağır problemləri olan Azərbaycan xalqına

Heydər Əliyev kimi həyatın ağır çətinliklərindən, tarixin sınaqlarından çıxmış uzaqgörən siyasətçi dururdu. Onlar çox yaxşı başa düşürdülər ki, yalnız belə çevik təfəkkürə sahib olan böyük dövlət xadimi Azərabycanı qoruyub qollaya bilər.

XX əsrin 60-cı illərinin sonu – 70-ci illərində Azərbaycanın ümumi yüksəlişi fonunda xalqımızın tarixinə də maraq artdı, bu sahədə də dirçəliş başlandı.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən etibarən mükəmməl iqtisadi inkişaf konsepsiyası hazırlanmış, yeni-yeni istehsal sahələrinin, ənənəvi təsərrüfat sahələrinin şöhrəti və səmərəliliyi bərpa edilmiş, yeni inkişaf istiqamətlərinin əsası qoyulmuş, iqtisadiyyatın sənaye bazası müasirləşdirilmiş və genişləndirilmişdir. Respublikanın müstəqil surətdə idarə olunması üçün mühüm addımlar atılmışdır. Nəticədə, Azərbaycanın iqtisadi potensialı əvvəlki illərlə müqayisədə qat-qat güclənmişdi.

Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə (1969-82 illər) idarəetmə mexanizmi və metodlarının təkmilləşdirilməsi, qanunçuluğa ciddi əməl edilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafı sahələrində yüksək göstəricilər əldə edilməklə yanaşı, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli-mənəvi özünüdərkin, mədəniyyətin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, soykök əsasında millətdə müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün də çox mühüm işlər görülmüşdür. Nəticədə, 1970-80 illərin birinci yarısı respublikanın ictimai-iqtisadi və sosial-mədəni həyatında sürətli yüksəliş mərhələsi olmuş, Azərbaycanın ənənəvi-tarixi dövlət idarəçiliyi mədəniyyəti yenidən dirçəldilmiş, müstəqil Azərbaycanın təməli qoyulmuşdur. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə (1969-82) ictimai-iqtisadi inkişafın və milli-mədəni oyanışın bütün sahələrində müstəqilliyə doğru böyük dönüş başlanmışdı.

Akademik Yaqub Mahmudov bütün bu proseslərin canlı şahidi olduğunu vurğulayaraq qeyd etdiyi kimi, "Heydər Əliyev hələ o zaman müstəqil yaşadığımız bu günləri görürdü, doğma vətənini bu gün üçün hazırlayırdı, böyük dühə sahibi yeni Azərbaycanı - bugünkü Azərbaycanı hələ o vaxtdan qurmağa başlamışdı. (16, s. 89)

Azərbaycanın XX əsr tarixinin əlli ildən çox bir dövrü Heydər Əliyev şəxsiyyəti ilə, onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. Heydər Əliyev doğma Azərbaycanımızın yalnız SSRİ məkanında deyil, həmçinin bütün dünyada tanınması üçün əlindən gələni etmişdir.





Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi həmin illərdə min cür maneələri dəf edərək Sovet hökumətinin Azərbaycanın hərtərəfli inkişafını təmin edən beş xüsusi qərar qəbul etməsinə nail oldu. Və eyni qətiyyətlə də həmin qərarların yerinə yetirilməsini təmin etdi. Xalqın qurub-yaratmaq dühası tamamilə və bütünlüklə Azərbaycanın ümumi yüksəlişi üçün səfərbər olundu. Nəticədə 1970-1985-ci illər Sovet Azərbaycanının tarixinə, bütün varlığı ərzində, ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. Sənayenin inkişaf səviyyəsinə görə bütün respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. İstehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan bütün SSRİ-də qabaqcıl mövqelərə çıxdı. İstehsal olunan məhsulların keyfiyyət göstəricisi əvvəlki dövrlərlə müqayisə olunmayacaq dərəcədə yüksəldi.

Heydər Əliyev uzaqgörən, qətiyyətli siyasətçi olduğunu hələ ölkəyə ilk dəfə rəhbərlik etdiyi 1969-82-ci illərdə sübut etmişdir. Heydər Əliyevin rəhbərliyi dövründə, XX əsrin 60-cı illərinin sonu - 70-ci illərində, bütün dünyanın xalqımızın tarixi keçmişinə maraq artdı, bu sahədə də oyanış başlandı. Xalqımızın milli-mənəvi həyatında da dirçəliş dövrü başlandı. Azərbaycan milli tarixində özünəməxsus yer tutan Heydər Əliyev elə nadir şəxsiyyətlərdəndir ki, onun zəngin irsi hələ neçə illər tədqiqatçıların diqqət mərkəzində olacaqdır. Çünki o öz əməlləri ilə hələ öz sağlığında canlı əfsanəyə çevrilmişdir.

Bu baxımdan Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsindən sonrakı dövr milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul olunur.

1969-cu il iyulun 14-də Azərbaycan tarixinin "Əliyev dövrü " başlandı. O dövrün ki, sovet quruluşunun inzibati-amirlik sisteminin mahiyyətindən doğan bütün məhdudiyyətləri və çatışmazlıqları ilə bərabər respublikanın sosial, iqtisadi və mədəni inkişafında əvvəllər görünməyən sıçrayışlarla, ən başlıcası isə xalqın mənəvi intibah, oyanış proseslərinin dərinləşməsi, milli özünüdərkin kütləvi şəkildə oyanması ilə xarakterizə olunurdu. (8, s.63)

İllər keçdikcə Heydər Əliyevin tutduğu sözlərə əməl etməsi millətin mənafeyini düşünməsini bir daha aydın göstərdi. Ona görə də istər bugün, istərsə də gələcəkdə Azərbaycan xalqı Ulu öndəri rəhmətlə anır.

Böyük siyasətçi, eyni zamanda güclü tarixçi olan Heydər Əliyev öz uzaqgörən siyasəti sayəsində əlindən gələni əsirgəmirdi. Bu onun Azərbaycana rəhbərliyinin birinci dövründə gördüyü bir çox işlərdə özünü göstərir. Həmin dövrdə ölkəmizdə baş verən çatışmazlıqların öhdəsindən yalnız dərin zəkaya, çevik təfəkkürə malik insan gələ bilərdi. Heydər Əliyevin azərbaycançılıq ideologiyasını dövlət ideologiyasına çevirdi. O deyirdi: "Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!". Ümumilli liderimiz xalqımız arasında həmrəyliyi gücləndirməklə milli birliyə nail olmağı öz fəaliyyət istiqamətində əsas tuturdu. Azərbaycan son illərdə sənayenin, kənd təsərrüfatının, iqtisadiyyatın və s. inkişafında dünyanın qabaqcıl ölkələri ilə yarışdadır. Buna səbəb də Heydər Əliyevin məqsədyönlü fəaliyyəti və uzaqgörən siyasətidir. Hal-hazırda da onun layiqli davamçısı, cənab prezident İlham Əliyev bu xətti lazımınca davam elətdirir. (19)

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Heydər Əliyevin siyasi portretinin cizgiləri /Ramiz MehdiyevMehdiyev, Ramiz Ənvər oğlu. fəls. e. d-ru, prof., akad.//Azərbaycan .-2007 - 10 may. - S.5,6.
2. Heydər Əliyev : dəyişməyən lider idealımız [Mətn] /R.MehdiyevMehdiyev, Ramiz Ənvər oğlu. fəls. e. d-ru, prof., akad. //Xalq qəzeti.-2008.- 10 may.- S.2-3.
3. Heydər Əliyev təlimi dövlətçilik və azərbaycanlılıq [Mətn] /R.Mehdiyev Mehdiyev, Ramiz Ənvər oğlu. fəls. e. d-ru, prof., akad. //Fəlsəfə və sosial-siyasi elmlər: jurnal.- 2008 .-2.- S.11-29.
4. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı: Azərbaycan Milli Ensiklopediyası-NPB, 2001, 276 s.
5. R.Mehdiyev."Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti" Bakı, 2008, 215 s.
6. R.Mehdiyev."Yeni siyasət inkişafa doğru". 2 cilddə. Bakı,2008, 580 s.
7. R.Mehdiyev." Vətəndaş cəmiyyətinə yol açan ideyalar" Bakı, 2006, 583 s.
8. Y. Mahmudov "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti". Bakı, 2002, s.309.
9. Y. Mahmudov "Azərbaycan dövlətçiliyinin xilaskarı". Bakı Altay, 1998, s.44
10. Y. Mahmudov "Heydər Əliyev ideyalarının zəfər yürüşü" Bakı-2011, s.525
11. Y. Mahmudov "Heydər Əliyev Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar toplusu". 2 cilddə. Bakı, 2013.
12. Y. Mahmudov "Azərbaycan Respublikasının tarixi (1991-2016). Tarixi-biblioqrafik araşdırma". Bakı.2016, s.372.
13. Y. Mahmudov "Azərbaycan: qısa dövlətçilik tarixi" Bakı, 2005, 140 s.
14. Ə.Qasımov "Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası" Bakı, 2009, s.302







15. Ə.Qasımov "Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi" Bakı, 2013, s.263.
16. L.Hüseynova- "Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri" (müstəqillik dövrü) Bakı, 2011, s.213
17. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/heydər-əliyevin-azərbaycana-rəhbərlik-etdiyi-i-dovr/
18. https://aliyevheritage.org/az/default.html
19. https://president.az/azerbaijan/leader


## THE FIRST PERIOD OF HEYDAR ALIYEV'S LEADERSHIP IN AZERBAIJAN IS A PERIOD OF INDEPENDENCE IN AZERBAIJANI HISTORIOGRAPHY SUMMARY


Heydar Aliyev overcame thousands of obstacles and obstacles during the first period of his leadership in Azerbaijan and strengthened our country. The idea of people's creation was mobilized for the overall rise of Azerbaijan in its entirety and in its entirety. As a result, 1970-1985 entered the history of Sovet Azerbaijan as the most brilliant period of its existence. There has been an increase in all areas of industry and agriculture. Important structural changes were carried out in the economy of the Republic. New and progressive industries have been ereated. Increased attention has been given to the development of research areas directly related to production. Azerbaijan has taken a leading position in the field of achievements of scientific and technical progress, application of advanced technologies in production. Thanks to the wise policy and wise leadership of Heydar Aliyev, Azerbaijan has become the most advanced agricultural republic in the Sovet Union.


## ПЕРВЫЙ ПЕРИОД РУКОВОДСТВА АЗЕРБАЙДЖАНОМ ГЕЙДАРА АЛИЕВА В АЗЕРБАЙДЖАНСКОЙ ИСТОРИОГРАФИИ ПЕРИОДА НЕЗАВИСИ РЕЗЮМЕ


В период своего первого руководства Азербайджаном Гейдар Алиев, преодолев многочисленные препоны, добился его укрепления. Созидательная сила народа была полностью мобилизована для этих целей. Таким образом, 1969-1982 годы вошли в историю советского Азербайджана как период созидания и процветания. Во всех отраслях промышленности и сельского хозяйства начался подъем. В экономике республики были проведены структурные изменения. Были созданы новые перспективные отрасли промышленности. Азербайджанская ССР вышла на передовые позиции в области достижения научно-технического прогресса, применения в производстве новых технологий. В результате дальновидной политики Г.Алиева Азербайджан превратился в ведущую промышленную и сельскохозяйственную республику в Советском Союзе.